Integrated Drilling and Well Services Management

# İNTEQRƏ OLUNMUŞ İDARƏETMƏ SİSTEMİ ÜZRƏ SİYASƏT

## (İSO 9001, İSO 14001, OHSAS 18001)

SOCAR-AQŞ MMC-də ISO 9001:2008 Keyfiyyət İdarəetmə Sistemi, ISO 14001:2004 Ətraf Mühitin Mühafizəsinin İdarəedilməsi Sistemi, OHSAS 18001:2007 Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikasının İdarəedilməsi Sisteminin tələbləri əsasında İnteqrə Olunmuş İdarəetmə Sistemi tətbiq olunmuşdur.

Bu sistem Dənizdə Neft və Qaz Quyularının Qazılması və Quyu Təmiri Xidmətləri ilə bağlı fəaliyyəti əhatə edir.

Müəssisədə tətbiq edilmiş İnteqrə Olunmuş İdarəetmə Sistemi üzrə formalaşdırılmış və müəssisənin əsas fəaliyyət istiqamətlərini müəyyən edən Siyasətin əsas müddəaları aşağıdakılardır:

1. İşçilərimizin sağlamlığını, təhlükəsizliyini təmin etmək və istehsalat fəaliyyətimiz zamanı ətraf mühitin çirklənməsinin qarşısını almaq;

2. Müəssisədə tətbiq olunmuş beynəlxalq standartların tələblərinə cavab vermək və İOİS-in effektivliyini artırmaq məqsədilə prosesləri daima təkmilləşdirmək;

3. Quyu tikintisinin effektivliyini artırmaq məqsədilə struktur vahidlərinin işini birgə planlaşdırmaq;

4. Mövcud qurğu və avadanlıqların etibarlılığını artırmaq, imkan yarandığı hallarda yeni texnika və texnologiyaları tətbiq etmək;

5. Sifarişçi tələblərinin və gözləntilərinin ən yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək;

6. Müəssisənin fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun qurmaq;

7. Müəssisənin işinin icrasına cəlb edilmiş kadr potensialından səmərəli istifadə etmək və kadr potensialını daima təkmilləşdirmək.

SOCAR-AQŞ MMC bütün işçilərini və partnyorlarını bu siyasətdən xəbərdar etməyi öz öhdəsinə götürür. Bu sənəd məxfi xarakter daşımır.

Baş direktor müəssisə fəaliyyətinin Siyasətin əsas müddəalarına uyğun şəkildə qurulmasına nəzarəti bütünlüklə öz üzərinə götürür və əməli fəaliyyətləri zamanı şirkətin bütün işçiləri tərəfindən Siyasətin əsas müddəalarına tam əməl edilməsi üçün fəal surətdə çalışır.

İmza: Tarix: